# Azərbaycan jurnalistikasının tarixi təcrübəsi və çağdaş media çağırışları

***Çağdaş dünyada azad medianın, insan hüquq və azadlıqlarının təmin edilməsi cəmiyyətdə demokratik mexanizmlərin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradio yayımları, informasiya agentlikləri və ictimai rəy formalaşdıran məlumatı müntəzəm formada yayan digər media vasitələri cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir.***

***Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Günümüzdə medianın texnoloji bazasının sürətlə müasirləşməsi, internetin geniş yayılması dünya mediasında olduğu kimi, Azərbaycan jurnalistikasında da yeni dövrün tələblərinin təxirəsalınmadan cavablandırılmasını tələb edir. Elektron medianın geniş yayılması, "sosial media" deyilən şəbəkənin yaratdığı problemlərlə yanaşı, onun danılmaz gerçəkliyə çevrilməsi ənənəvi jurnalistikanı çətin imtahan qarşısında qoymuşdur. Belə bir şəraitdə ölkəmizdə dövlət media siyasətinin yeniləşdirilməsi də zərurətə çevrilmişdir.

Başlanan media islahatlarının uğurla davam etdirilməsi, nəzərdə tutulan hədəflərə çatılması Azərbaycan demokratik jurnalistikasının tarixi təcrübəsindən yaradıcılıqla istifadə edilməsini, beynəlxalq media nəzəriyyələrinə və təcrübəsinə dərindən bələdliyi, çağdaş medianın xarakterinin tam nəzərə alınmasını, onun maliyyə-təsərrüfat əsaslarının mənimsənilməsini gündəmə gətirmişdir. Ölkəmizdə son illərdə gerçəkləşdirilmiş mediaya dövlət dəstəyi üsul və formalarının bir sıra hallarda gözlənilən nəticələri verməməsi, dövlətdən dəstək alan müstəqil dövri nəşrlərin yeni media ilə rəqabətdə mövqeyini möhkəmləndirə bilməməsi də media sahəsində əsaslı islahatı qaçılmaz ehtiyaca çevirmişdir.

Dövlət media siyasətinin müasirləşdirilməsi və çevikləşdirilməsi bu sahədə normativ-hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasını və həyata keçirilməsini tələb edir. Hazırda ölkəmizdə fikir, söz və məlumat azadlığının, plüralizmin təmin edilməsi, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlanır. Azərbaycan demokratik jurnalistikasının keçdiyi 146 illik yolun uğurlarının, problemlərinin və axtarışlarının öyrənilməsi və nəzərə alınması da media islahatlarının məqsədyönlü aparılmasında önəmlidir.

1875-ci il iyulun 22-də ilk Avropa tipli universitet bitirmiş, Şərqin mənəvi zənginliklərini Qərbin qabaqcıl dəyərləri ilə qovuşdurmuş təbiət alimi, Bakı gimnaziyasının müəllimi Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin nəşrinə nail olması təkcə dövlət müstəqilliyini itirmiş Azərbaycanda deyil, həm də Rusiya imperiyasında ilk türkdilli qəzetin işıq üzü görməsi idi. "Əkinçi"nin ardınca "Kəşkül", Ziya" ("Ziyayi-Qafqaziyə") kimi anadilli nəşrlər XIX əsrin sonlarında milli jurnalistikamıza, zəif də olsa, mövcudluq qazandırmışdır. Bu illərdə Bakıda rusca buraxılan "Kaspi" qəzetinin ana dilində milli burjuaziya nəşrinə çevrilməsi, Həsən bəy Zərdabinin rəhbərliyi və fəal iştirakı, Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə çıxması da sanballı mətbuat hadisəsi və faktı olmuşdur.

XX əsrin əvvəllərində millətsevər ziyalıların fədakarlığı ilə işıq üzü görən "Şərqi-Rus", Həyat", "Füyuzat", "İrşad", "Tazə həyat", "Həqiqət", "Tərəqqi", "Səda" kimi qəzetlər, adlarından da göründüyü kimi, ictimai maarifçilik işini davam etdirib istiqlal mübarizəsi hüdudlarına çatdırmışdır. Bu dövri nəşrlər milli demokratik jurnalistikamızı ideya, məzmun, peşəkarlıq baxımından zənginləşdirmiş, istiqlal məfkurəsini ərsəyə gətirmişdir. O illərdə formalaşmış milli-demokratik publisistikamızın tanınmış isimləri olmuş Əhməd bəy Ağayevin, Əli bəy Hüseynzadənin, Məhəmməd ağa Şahtaxtlının, Haşım bəy Vəzirovun, Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının, Nəriman Nərimanovun, Əbdürrəhim bəy Haqverdiyevin, Ömər Faiq Nemanzadənin və digər ziyalıların qəzetçilik və publisistik fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının geniş yayılmasına xidmət etmişdir.

Böyük yazıçı-demokrat Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə buraxılmış və öz ətrafında ədəbi-publisistik yaradıcılıq məktəbi yaratmış satirik "Molla Nəsrəddin" jurnalı milli bəlalarımıza qarşı davamlı mübarizə aparmışdır. İlk qadın nəşri "İşıq", ilk uşaq və məktəb jurnalları "Dəbilstan", "Məktəb", "Rəhbər" də həmin dövrdə yaranmış, milli təhsilin inkişafına, mədəni oyanışa çıraq tutmuşdur. Dövlətçilik məfkurəsini ictimai arenaya gətirmiş "Açıq söz" qəzetinin nəşri isə 1918-ci ildə ilk dövlət qəzetinin yaranması üçün ideya-yaradıcılıq hazırlığı olmuşdur. 1918-ci ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti kimi Gəncədə nəşrə başlayıb, Bakıda fəaliyyətini davam etdirən "Azərbaycan" qəzeti milli demokratik jurnalistikamızın təcrübəsi və ənənəsi əsasında yaranan yeni tipli ictimai-siyasi tribuna kimi mətbuat tariximizdə şərəfli yer tutur.

Dövlət müstəqilliyimizin bərpa edilməsinin ilk mərhələsində– 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuatımız çoxsaylı, rəngarəng nəşrləri ilə yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmişdir. Demokratik jurnalistikamız bu dövrdə istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında və təbliğində mühüm və təsirli rol oynamışdır.

1920-ci ilin 28 aprel işğalı və AXC-nin süqutu ilə demokratik jurnalistikamız da susdurulmuş, kommunist məfkurəli yeni mətbuata rəvac verilmişdir. 70 illik kommunist epoxasının partiya-sovet mətbuatı adı ilə tanınan nəşrləri ideoloji çərçivədə fəaliyyət göstərsə də, milli jurnalistikamızın sonrakı inkişafı onlarla bağlı olmuşdur. Demokratik mətbuatımızın peşəkarlıq və milli-mənəvi varlığımızla bağlı təcrübəsi və ənənəsi, əslində, kommunist mətbuatı daxilində açıq-gizli yaşadılmış, qorunub-zənginləşdirilmişdir.

Sovet epoxasında buraxılmış "Kommunist" (indiki "Xalq qəzeti"), "Azərbaycan gəncləri", "Sovet kəndi", "Azərbaycan müəllimi", "Azərbaycan pioneri", "İdman", "Ədəbiyyat və incəsənət" kimi qəzetlər, bir sıra jurnallar milli jurnalistikamızın professional inkişafı ilə yanaşı, həm də kommunist epoxasının salnaməsi olaraq gərəklidir. Sovet dövründə dövlətin yaratdığı anadilli radio (1926) və televiziya (1956) milli jurnalistikamızın yeni yönlərini formalaşdırmış, dövrün səs və kino-video salnaməsini yaratmışdır.

1988-ci ildən başlanan milli azadlıq və ərazilərimizin müdafiəsi zəminində xalq hərəkatı çox keçmədən demokratik jurnalistikamıza qayıdışı zərurətə çevirmişdir. Yeni yaranan bir sıra müstəqil nəşrlər günün həqiqətlərini, xalqın köklü maraqlarını əks etdirməyə başlamışdır. 1991-ci ildə Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi kommunist jurnalistikasının da varlığına son qoymuş, azad mətbuatın inkişafına siyasi-mənəvi, sosial-iqtisadi əsaslar yaratmışdır.

Azərbaycanın dövlət müstəqilliyi bütün maddi sərvətlərimiz kimi, milli-mənəvi dəyərlərimizi, məfkurə irsimizi də xalqımıza qaytarmışdır. Milli jurnalistikamızın ideoloji buxovları qıraraq öz demokratik ənənələrini bərpa etməsi sovet dövrünün son illərində gerçəkliyə çevrilsə də, yeni azad media dövlət müstəqilliyinin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblərdən çətinliklərlə üzləşmişdir. Cəmiyyətdə hökm sürən siyasi və iqtisadi böhran isə vəziyyəti daha da ağırlaşdırmışdır.

Belə bir dövrdə – 1993-cü ilin yayında xalqın tələbi və dəstəyi ilə hakimiyyətə qayıdıb ölkəni sabitlik, inkişaf yoluna çıxaran ümummilli lider Heydər Əliyev demokratik dövlətdə azad medianın inkişafı üçün zəruri olan əsaslı tədbirləri də vaxtında həyata keçirmişdir. Azadlıq epoxasının ilk illəri azad jurnalistika üçün problemsiz, ağrı-acısız ötüşməmişdir. Qarabağ müharibəsi, iqtisadi tənəzzül, siyasi hərc-mərclik şəraitində qəzet-jurnal bolluğu yaransa da, onların xaotik fəaliyyəti azad mətbuatın inkişafına mane olmuşdur.

Bütün bunlara baxmayaraq, ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. Ümummilli lider Heydər Əliyevin ölkənin müstəqilliyi ilə yanaşı, jurnalistikamızın da əldə etdiyi azadlığı xilas etmişdir. Böyük rəhbər dövlət müstəqilliyinin möhkəmləndirilməsinin, yeni demokratik cəmiyyət yaradılmasının zəruri amilləri sırasında söz azadlığının əsaslarının yaradılması, müstəqil mətbuatın hərtərəfli inkişafı üçün ardıcıl, kompleks tədbirlər gerçəkləşdirmişdir.

Müstəqillik illərində ölkədə söz azadlığının, demokratik teleradio fəaliyyətinin hüquqi-normativ əsasları yaradılmışdır. Konstitusiyada söz və mətbuat azadlığı prinsipləri əksini tapmış, KİV, İnformasiya azadlığı, Teleradio fəaliyyəti və s. haqqında qanunlar qəbul edilmişdir. Azərbaycan jurnalistikası, son 30 ildə demokratik əsaslar üzərində inkişaf etmişdir. Medianın maliyyə və peşəkarlıq problemləri xeyli dərəcədə həllini tapmışdır. Sahənin maddi-texniki bazasını yeniləşdirmək, maliyyə-sosial problemlərini aradan qaldırmaq üçün sonrakı dövrdə real təminatlar işə salınmışdır.

1998-ci ilin 6 avqustunda Prezident Heydər Əliyevin ölkəmizdə senzuranı ləğv etməsi milli jurnalistika tariximizdə yeni bir dövr açmışdır. Medianın yaradıcılıq prosesinə heç bir dövlət nəzarətinin–senzuranın olmadığı şəraitdə cəmiyyətin aynası, azad sözün yayıcısı, milli maraqların müdafiəçisi olmaq Azərbaycan jurnalistikasının tarixi nailiyyətidir. Ölkəmizdə senzuranın ləğv edilməsi demokratik inkişaf və azad jurnalistika tariximizə qızıl hərflərlə yazılmış, yeni bir başlanğıc olmuşdur.

Zəmanəmizdə medianın gücündən bəhrələnməklə böyük əməli nəticələr əldə etməyin nadir örnəyini yaratmış, həmişə milli jurnalistikamızın himayədarı olmuş Heydər Əliyevin iradəsi ilə, ilk növbədə, ədəbi-bədii və uşaq nəşrləri dövlət himayəsinə götürülmüşdür, müvafiq tədbirlərlə digər nəşrlərin də bazar şəraitində fəaliyyətinə əlverişli şərait yaradılmışdır. Qəzetlərin borclarının dondurulması və silinməsi tədbirləri müəyyən qədər onların dirçəlməsinə kömək etmişdir.

Dövlətin medianın fəaliyyətini tənzimləməkdən imtina edərək, demokratik mexanizmlərə meydan açması ilə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda Mətbuat Şurasının yaranması ölkəmizdə qəzet-jurnal redaksiyalarının həyatında sivil prinsiplərin bərqərar olmasını təmin etmişdir. Xatırladaq ki, ölkəmizdə yaranmış Mətbuat Şurası keçmiş sovet məkanı üçün model forma kimi qəbul edilmişdir.

Müstəqillik illərində yenidən formalaşmış, cəmiyyətdə mövqeyini və nüfuzunu möhkəmləndirmiş azad medianın ən mühüm nailiyyətlərindən biri odur ki, ölkədə informasiyanın maneəsiz yayılması, obyektiv ictimai rəyin formalaşması təmin edilmiş, hamının öz sözünü demək və yazmaq imkanı gerçəkləşdirilmişdir. Azərbaycanın hərtərəfli yüksəlişi prosesinə azad jurnalistikanın köməyi getdikcə artmaqdadır. Bütün bunlar dünyanın demokratik dairələrində yüksək dəyərləndirilir. Media sahəsində bu uğurları qədirbilənliklə dəyərləndirən KİV kollektivləri bu tarixi nailiyyəti xalqımıza bəxş etmiş ulu öndər Heydər Əliyevi "Jurnalistlərin dostu" elan etmişlər.

Prezident İlham Əliyev isə son illərdə KİV-ə dövlət dəstəyinin yeni demokratik nümunəsinə həyat vermiş ölkə rəhbəri kimi tanınmışdır. Jurnalistlər media qarşısında xidmətlərə görə Prezident İlham Əliyevə də dalbadal 3 dəfə "Jurnalistlərin dostu" mükafatı təqdim edilmişdir.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin KİV-in inkişafına dövlət himayəsi və jurnalistlərə dost münasibətini davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində son 18 ildə jurnalistikamızın problemləri ardıcıl olaraq aradan qaldırılmışdır.

Tarixən, ümummilli dəyərlərə, tərəqqi amillərinə xidmət zəminində formalaşmış milli jurnalistikamız demokratik cəmiyyətdə, müstəqillik şəraitində də öz rolunu maneəsiz olaraq icra edir. Müstəqil Azərbaycan dövləti isə azad jurnalistikanın inkişafına hər cür qayğı göstərir və onun sərbəst, qəyyumsuz fəaliyyətini təmin edir. Bu gün Azərbaycan mətbu nəşrlərin dövlət icazəsi olmadan fəaliyyət göstərdiyi az sayda ölkələr sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşməsi haqqında" 12 yanvar 2021-ci il tarixli fərmanında qeyd edildiyi kimi: "Həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılmış, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür".

Bütün bunlarla yanaşı, həyatın hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu çağdaş dövrdə ölkənin media sferasında da yeniləşməyə və təkmilləşməyə tələbat yaranmışdır.

Beynəlxalq informasiya mühitinin müəyyən etdiyi prinsiplərə uyğun olaraq, media sahəsində modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan jurnalistikasının qədərincə yararlanmasına da ehtiyac duyulur. Odur ki, milli mediamızın şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, xalqın obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə zəruri və əsaslı islahatların aparılmasına başlanmışdır.

Dəfələrlə yüksək səviyyədə bəyan edildiyi kimi, ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bu gün Azərbaycan jurnalistikası informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini daha da gücləndirməlidir.

Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, bir sözlə, ölkəmizdə dövlət media siyasətinin demokratik əsaslarla daha çevik və səmərəli qurulması bu ilin əvvəlində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin yaradılması ilə nəticələnmişdir. Son 2 ildə ölkəmizdə aparılan hərtərəfli, dərin islahatların davamı olaraq belə bir qurumun yaradılması ölkəmizdə demokratik dövlət və azad media münasibətlərini yeni yüksək səviyyəyə qaldırmağa xidmət edir.

Medianın İnkişafı Agentliyi medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

İslahatların gedişində agentliyin rəhbərliyi ilə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək, dövlət qurumları ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə şərait yaratmaq, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, o cümlədən sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirmək istiqamətlərində yollar axtarılır. Hər şey ona yönəlibdilmişdir ki, mediaya dövlət dəstəyinin yeni formaları mövcud ələbaxımlığa son qoysun, müstəqil nəşrlərin fəaliyyətinin güclənməsini təmin etsin.

Bunlardan əlavə, müstəqil media özünə lazımi maliyyə təminatı yaratmaq məqsədilə yollar axtarıb tapmalı, reklam-menecment fəaliyyətini səmərəli qurmağı bacarmalıdır. Medianın peşəkarlıq səviyyəsini yüksəltmək üçün sahə mütəxəssislərinin hazırlanması və onların əlavə təhsilinin təşkili yenidən qurulmalıdır. Dünyanın aparıcı dillərində fəaliyyət göstərən jurnalistlərin hazırlanması, ölkəmizdə və xaricdə müxtəlif dillərdə çap, elektron və onlayn yayımların təşkili də günün reallığıdır.

Media subyektlərinin xarici həmkarları ilə əməkdaşlıq etməsi, qarşılıqlı əlaqələrin formalaşdırılması və həmin subyektlərin təcrübəsinin öyrənilməsi stimullaşdırılmalıdır. Beynəlxalq informasiya mübadiləsində yeni imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqi, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi də media islahatlarının önəmli hədəflərindəndir.




Bütün bu tədbirlərdə Media Agentliyinin fəal təşkilatçılıq rolu nəzərdə tutulur. Agentlik əhalinin və ya müəyyən təbəqənin maarifləndirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş verməli və onların mediada yayımlanmasını təmin etməlidir. Bu qurum media subyektləri ilə birlikdə audiovizual məhsulların istehsalı və yayımını da həyata keçirəcək.

Agentliyin ölkəmizdə media subyektlərinin fəaliyyətinə mane olan problemlərin həllinə dair dövlət və yerli özünüidarəetmə orqanlarına verəcəyi təkliflər, dövlət orqanları ilə media subyektləri arasında əməkdaşlığın genişləndirilməsi, dövlət orqanlarının media subyektləri ilə əlaqələrinin təkmilləşdirilməsi, qarşılıqlı etimadın artırılması ilə əlaqədar həyata keçirilən tədbirlər, media subyektlərinin fəaliyyəti ilə bağlı aparılan təhlillər, ictimai rəyin davamlı öyrənilməsi indiki media islahatlarının silsilə hədəfləri olub ölkəmizdə azad jurnalistikanın problemlərinin həllini təmin etməyə yönəldilmişdir.

Media sahəsində xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, media sahəsində peşə davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq da qarşıda duran peşəkarlıq tələbləridir. Jurnalist təşkilatları və müstəqil ekspertlərlə əməkdaşlıq etmək isə ölkənin jurnalistika mühitinə yeni abhava gətirməli, yaradıcılıq axtarışlarını və maliyyə resurslarını artırmağı stimullaşdırmalıdır.

Bütün bu çağdaş media çağırışlarının təşəbbüskarlıqla cavablandırılması azad medianın inkişafına, onun cəmiyyət həyatına daha çox yaxınlaşmasına, ümummilli maraqların azad jurnalistika müstəvisində ən yüksək səviyyədə əksini tapmasına geniş meydan açacaq, nəticədə, Azərbaycan dövlətinin media siyasətinin növbəti uğurlarını təmin edəcəkdir.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***